# Qarabağ savaşı və Azərbaycan Ordusunun tarixi qələbəsi Türkiyə mətbuatında

(II yazı)

Azərbaycan milli hərb tarixinin ən böyük qələbəsi sayılan Vətən müharibəsi çağdaş savaşda uğur qazanmağın zəruri amilləri sırasında mətbuatın informasiya dəstəyinin önəmini də gündəmə gətirdi. Bu baxımdan beynəlxalq media aləmində geniş auditoriyası və nüfuzu ilə seçilən Türkiyə kütləvi informasiya vasitələrinin Azərbacanın haqq işini davamlı və geniş surətdə müdafiə etməsi qədirbilənliklə öyrənilməyə layiqdir.

Ümumiyyətlə, II Qarabağ savaşı zamanı qardaş Türkiyə Azərbaycana hərtərəfli dəstəyi ilə təkcə 100 il öncəki tarixi xilaskarlıq missiyasını təkrar etmədi, eyni zamanda, terrora qarşı mübarizədə qazandığı uğurları, Yaxın və Otra Şərqdə möhkəmlənən mövqeyi ilə Qafqazda da özünü təsdiq etdi və dünya miqyasında yeni güc olduğunu mövcud güc mərkəzlərinə anlatdı. Azərbaycanın Vətən müharibəsinin Cənubi Qafqazda reallıqları dəyişdirmiş nəticələri də bunu təsdiq edir. Bu həqiqəti təkcə dünyaya hökm edən siyasi və hərbi dairələrin mövqeyində yox, beynəlxalq medianın açıqlama və qənaətlərində də açıq-aydın gördük. Bu baxımdan savaş tarixinin mənzərəsini və fəlsəfəsini Türkiyə mətbuatının timsalında dəyərləndirməyi vacib hesab etdik.

### Turkiyə dövlətinin və türk xalqının Azərbaycana dəstəyi mətbuatda

Öncədən söyləmək yerinə düşər ki, Türkiyə mətbuatı II Qarabağ savaşı başlandığı ilk gündən hər sayında baş verənlərə və işğal cəhdinin anatomiyasına kifayət qədər əhatəli yer ayırmışdır. "Azərbaycan qələbə çalacaq", "Can Azərbaycanın yanındayız", "Azərbaycan vura-vura irəliləyir", "Azərbaycan Ordusu işğala son qoyacaq" kimi manşet bildirişləri və həmrəylik çağırışları ilə qardaş ölkə mətbuatı hər sayında müharibə xəbərlərinə xüsusi yer ayırmışdır. 44 gün ərzində Qarabağ cəbhəsindən verilən ardıcıl məlumatlar, işğalçıya qarşı inamlı mübarizə, Azərbaycanda hakimiyyət, ordu və xalq birliyi ölkəmizdə olduğu qədər də Türkiyə mediasında önəmli mövzu olmuşdur.

Mətbuatın dərc etdiyi materiallar sırasında qardaş Türkiyənin hadisəyə gecikmədən verdiyi dəstək və Prezident Rəcəb Tayyib Ərdoğanın "Türk milləti bu gün bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır" kimi açıq bəyanatı ölkələrimiz arasındakı münasibətlərin ən dəyərli qiyməti olaraq qəbul edildi. Müharibənin ilk günündəcə ölkəsinin bu müharibəyə münasibətini açıqlayan Prezident Rəcəb Tayyib Ərdoğan bildirdi: "Azərbaycana qarşı hücumlarına yenisini əlavə edən Ermənistan bölgədəki sülh və əmin-amanlığa ən böyük təhdiddir".

Müharibədən narahatlıq duyanlara da Prezident Ərdoğanın cavabı qəti idi. " Hürriyət" qəzeti geniş ictimaiyyətə onun mövqeyini belə təqdim edirdi: "Ermənistanın işğal etdiyi yerlərdən çıxması, bölgədə Dağlıq Qarabağın işğalı ilə başlayan böhrana artıq son qoyulması vacibdir. "Minsk üçlüyü" adlanan ABŞ–Rusiya–Fransa 30 ildir bu problemi həll edə bilmədilər və bu problemi həll etməmək üçün əllərindən gələni etdilər. Artıq hesab vaxtı gəldi. Azərbaycan isə bu problemi özü həll etmək məcburiyyətində qaldı". Üstəlik, Türkiyə lideri müharibənin dayandırılmasına çalışan ermənipərəst dairələrə, eləcə də bölgədə sülh istəyənlərə onun yolunu göstərirdi: "Türkiyə bir daha Azərbaycana öz dəstəyini ifadə edir. Bu regionda davamlı sülhün yolu ermənilərin işğal etdikləri hər qarış Azərbaycan torpağından geri çəkilmələrindən keçir".

Türkiyə Böyük Millət Məclisinin (TBMM) payız sessiyasının açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağdakı Ermənistan–Azərbaycan münaqişəsinə Türkiyənin müdaxilə etməməsini təmin etmək üçün beynəlxalq birliyə çağırış etdiyinə dair açıqlamasında vurğulamışdı: "Biz nə edəcəyimizi Paşinyandan soruşmayacağıq. Biz bunun qərarını özümüz verdik". Ərdoğan qeyd etmişdi ki, Türkiyə bütün imkanları, bütün qəlbi ilə Azərbaycana dəstək verməyə davam edəcək.

"Anadolu" Agentliyi bildirirdi ki, Türkiyə Böyük Millət Məclisindəki çıxışında şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyən dövlət başçısı deyib: "Türkiyə olaraq bir millət, iki dövlət kimi gördüyümüz azərbaycanlı qardaşlarımıza bütün imkanlarımızla və qəlbimizin hökmü ilə dəstəyimizi davam etdirəcəyik. Azərbaycanlı qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək və vətənlərini qorumaq mübarizəsində onların yanlarında olacağıq". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cıxışında onu da bildimişdi ki, "ATƏT-in Minsk qrupunun həmsədr ölkələri – ABŞ, Rusiya və Fransa 30 ilə yaxındır bu münaqişəyə laqeyd yanaşıblar. Baş verənlərin qarşısında onların atəşkəs axtarışı içində olmaları hər şeydən əvvəl qəbuledilməzdir. Nə isə istənilirsə, o zaman işğalçılar o torpaqlardan çıxmalıdır ki, nəticə əldə edilsin. Azərbaycanlı qardaşlarımız öz torpaqlarına qayıtmaq istəyirlər, bunun həsrətindədirlər. Mən bunları cənab Putinlə də, cənab Makronla da müzakirə etmişəm. Amma həmişə oturublar, danışıblar, lakin nəticə yoxdur. İndi nəticə vaxtıdır. Ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına və mülki əhaliyə qarşı törətdikləri qətliamlara kar, kor və lal qalanların bu gün nümayiş etdirdikləri davranış ikiüzlülükdür". Türkiyənin dövlət başçısı Ermənistana dəstək olanları da qınamışdı: "Bu yaramaz dövlətə (Ermənistan) dəstək olanları insanlığın ortaq vicdanı qarşısında cavab verəcəkləri barədə xəbərdar edirəm".

Qarabağ müharibəsi dövründə Prezident Rəcəb Tayyib Ərdoğan, demək olar ki, bütün cıxış və görüşlərində bu məsələyə toxunmuş və qəti mövqe ortaya qoymuşdur. O, Türkiyə–Afrika İqtisadi Forumunun açılışında videoformatda etdiyi çıxışında da Dağlıq Qarabağ məsələsinə toxunaraq deyirdi: "Ermənistanın uzlaşmaz və ərköyün davranışları nəticəsində 30 ildir ki, bir növ qanqrenaya dönən bu münaqişənin həlli üçün onun işğala son qoyması vacibdir". "Hürriyət" qəzeti bu hökmü "Ərdoğan: Qarabağda münaqişənin həlli işğala son qoyulmasıdır" adı ilə forumdankənar ayrıca bir xəbər kimi təqdim etmişdir.

Türkiyənin bir dost-qardaş ölkə kimi zərrə qədər təmənna güdmədən Azərbaycanın yanında yer alması ciddi siyasi, hərbi, mənəvi önəm daşıyan dəyərdir. Eyni zamanda, hec bir vaxt itkisi gözləmədən baş verənlərə Türkiyənin münasibəti təkcə strateji tərəfdaşlığın yox, həm də qardaş olan dövlətin və onun dəstəkcisi olan xalqın siyasi iradəsinin bariz ifadəsi idi. "Otuz ildir davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız Ermənistanın işğal etdiyi ərazilərdən geri çəkiləcəyi halda mümkün olacaq. Türkiyə ədalətli davasında hər zaman qardaş Azərbaycanın yanındadır" kimi bəyanatlar təkcə Türkiyənin Müdafiə naziri Hülisi Akarın, Prezident Administrasiyası İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fahrettin Altunun yox, həm də bütün Türkiyənin mövqeyi idi.

"Azərbaycan həm mənəvi, həm də hüquqi cəhətdən haqlıdır. Biz Bakını həm danışıqlar masası arxasında, həm də döyüş meydanında dəstəkləməyə hazırıq. Azərbaycan bunu meydanda həll etmək istəyirsə, Azərbaycanın yanında olacağıq. Azərbaycan istəsə, lazım olanı edəcəyik. Ancaq görürük ki, Azərbaycanın imkanları kifayətlidir"– deyən Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Bakı səfərində deyilənləri bir az da sərtləşdirmişdi. "Hürriyet" bu barədə yazırdı: "Mövlud Çavuşoğlu dünən Azərbaycanın paytaxtı Bakıya səfəri zamanı Dağlıq Qarabağdakı münaqişələrlə bağlı açıqlamalar verib. Çavuşoğlu "Məğlub vəziyyətə düşən Ermənistan mülki əhaliyə və obyektlərə hücum edir. Bu insanlıq cinayətidir, Ermənistanın çarəsiz vəziyyətə düşdüyünün sübutudur. ATƏT-in Minsk qrupuna daxil olan ölkələr işğala məruz qalanla işğalçı arasında fərq qoymur. Belə davam etməyəcəyini bütün dünya anlamalıdır. Ermənistan beynəlxalq hüququ tapdalayaraq Orta Şərq regionunda yaşayan erməniləri işğal etdikləri Azərbaycan torpaqlarına köçürür. Yəni, bu torpaqlarda daimi qalmaq istədiklərinin mesajını verirlər. Bütün dünyanın haqlının yanında olması, həqiqətləri söyləməsi üçün Azərbaycanla birgə mübarizəmizi davam etdirəcəyik" deyib.

"Sabah" qəzeti isə Avropa Şurasının Nazirlər Komitəsinin videokonfrans formatında keçirilən iclasına qatılan xarici işlər naziri Mövlud Çavuşoğlunun mövqeyini onun rəsmi "Twitter" səhifəsində yayımlanan məlumatına əsasən bu cür şərh edirdi: "Azərbaycanın ərazi bütövlüyü hər kəs tərəfindən qeyd-şərtsiz dəstəklənməlidir".

Çavuşoğlunun bu bəyanatı Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalına görə onun ölkəsinin qardaş Azərbaycana mənəvi və siyasi səciyyə daşıyan dəstəyidir: "Dağlıq Qarabağ münaqişəsinin həlli işğal olunmuş ərazilərin azad olunması ilə mümkündür. Əgər Ermənistan sülh istəyirsə, işğal olunmuş ərazilərdən qeyri-şərtsiz çıxmalıdır".

Tokatdan olan AKP millət vəkili Zeyid Aslan mətbuata müsahibəsində bildirirdi: "Türkiyə dövləti, sayın Rəcəb Tayyib Ərdoğan son illər ölkəmizin çevrəsində haqqın, ədalətin zülmə, haqsızlığa boyun əyməsinə qarşı çıxır. Yeni dünya düzəninə ehtiyac yaranıb. Türkiyə ilə Azərbaycanın bir-birinə arxa, həyan olması gücümüzü daha da artırır, düşmənlərimiz bundan bərk narahat olurlar. Ermənistan Azərbaycan torpaqlarının beşdə birini işğal edəndə dünya susurdu. Ermənilər XX əsrin ən amansız qətliamlarından olan Xocalı faciəsini törədəndə də Qərbdə bu vəhşəti görmədilər. Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etdi, onun icrası heç kimi maraqlandırmadı. Bu gün Azərbaycan öz haqqını tələb edir, suveren hüququnu bərpa etməyə çalışır, dünya gücləri isə dərhal atəşkəsdən, dialoqdan dəm vururlar. Zatən, onlar bununla zalıma arxa dururlar. Bəli, hər şeyi adı ilə çağırmaq lazımdır. Ermənistan özgə torpaqlarını işğal edib. Çox hörmətli İlham Əliyevin sözləri hər an yadımdadır: "Erməni əsgərinin Azərbaycan torpaqlarında nə işi var?".

Ermənistanın 27 sentyabr tarixində Azərbaycana qarşı törətdiyi yeni irimiqyaslı təcavüz aktı və Ermənistan ordusunun dinc əhalini iriçaplı silahlardan atəşə tutması Türkiyənin bütün bölgələrində böyük qəzəb doğurmuşdu. Eyni zamanda, Azərbaycan dövlətinin özünümüdafiə hüququndan istifadə edərək düşmənə qətiyyətli cavab verməsi qardaş ölkədə haqlı mövqe kimi dəyərləndirilirdi. Ankara, İstanbul, İzmir, Samsun, Antalya, eləcə də Türkiyənin bütün bölgələrindən gələn dəstək çağırışlarının ardı-arası kəsilmək bilmirdi.

Mətbuatın dərc etdiyi belə xəbərlərin sırasında Türkiyənin bütün əyalət və şəhərlərində dəstək aksiyalarının keçirilməsi bir qardaşlıq borcu kimi ortaya qoyulmuşdu. Antaliyadan, Trabzondan, Toqatdan, Qarsdan, Yozqatdan, Sakaryadan və məmləkətin onlarca başqa yerlərdən alınan və mətbuatın dərc etdiyi xəbərlər Türkiyənin Azərbaycanın haqq savaşına ciddi bir dəstəyinin numunəsi idi. Alaniyanın bölgə qəzeti olan "Alanya" belə xəbərlərdən birində yazırdı: "Azərbaycanın dostlarından olan alanyalı memar Fəxri İgid bildirir ki, bir zamanlar Bakıda, Gəncədə, Qubada, Şəkidə olarkən tanış olduğum qardaşlarıma gözünüz aydın deyirəm. Nəhayət ki, 30 il sonra olsa da Azərbaycan Ordusunun əsgərləri düşmən Ermənistanla haqq mücadiləsinə qalxdılar".

Yenə həmin qəzetin başqa bir xəbərində deyilirdi: "Əzm və qətiyyətlə işğalçı Ermənistanın hücumlarına qarşı da sonadək azərbaycanlı qardaşlarımızın yanındayıq. İndi bütün Türkiyə kimi Alanyada yaşayan türklər də bu fikirdədir. Alanyanın küçələrində qoşa dalğalanan Azərbaycan və Türkiyə bayraqları bu birliyin təsdiqidir. AK Partiyanın Alanya təşkilatının binası önündə bu bayraqlar yanaşı dalğalanır. AK Partiya Alanya şəhər təşkilatının rəhbərliyi Azərbaycanı dəstəkləmək üçün təşkilatın binasına Azərbaycan və Türkiyə bayraqlarını asdı. Bu, Azərbaycanla Ermənistan arasında 27 sentyabrda başlayan qarşıdurmalara və 27 ildir ki, Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki işğalçılıq siyasətinə AK Partiya Alanya təşkilatının sərgilədiyi mövqe olmaqla, Azərbaycana bayraq dəstəyi". Başkan Mustafa Toklunun dediyi kimi: "Biz hər zaman qardaş Azərbaycanın yanındayıq. Buna görə də şanlı bayraqlarımızı şəhər təşkilatımızın önündən asdıq".

Alanya Ticarət və Sənaye Palatasının prezidenti Mehmet Şahin də Ermənistanın xain hücumlarına məruz qalan Azərbaycanı dəstəkləmək üçün iş adamlarına və vətəndaşlara Türkiyə və Azərbaycan bayraqlarını paylatdı. Mehmet Şahin kampaniyaya Türkiyə və Azərbaycan bayraqlarını palatanın inzibati binasının önündə asmaqla başladı.

Türk mətbuatının təqdim etdiyi xəbərlərdə "Ermənistanla sərhəddə baş verənlərdə və illər boyu gərginliyin artmasında rəsmi Bakının günahı və marağı yoxdur" – mülahizəsi və hadisələrin gedişinin ardıcıl izlənməsi qardaş ölkənin xalqının və Türkiyə dövlətinin mövqeyinin təsdiqi kimi də dəyərləndirilə bilər. Hərgah, demokratiya dəyərlərinin kifayət qədər yüksək bir mərtəbədə yer aldığı qardaş ölkədə mətbuatın belə prinsipial və ədalətli mövqedə dayanması təkcə qardaşlıq və dostluq meyarlarının təsdiqi yox, eyni zamanda, dalana salınmış Qarabağ məsələsinin ədalətli həllinə obyektiv yanaşmanın təzahürü idi.







Qarabağ müharibəsini 30 il sonra işğala qarşı mübarizə adlandıran Türkiyə mətbuatı bir az da irəli gedərək "müharibəni daha çox iqtisadi və siyasi iflas məngənəsində olan Ermənistan hakimiyyətinin hazırladığı planlı ssenari kimi təqdim edirdi: "Önəm daşıyan məqsəd isə aclıq və səfalət içində olan ermənilərin diqqətini cəbhə xəttinə yönəltməklə hakimiyyətin siyasi səriştəsizliyini ört-basdır etmək idi".

Ədalət və İnkişaf Partiyasının sədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan partiyasının Kocaelidə keçirilən VII Fövqəladə Konqresindəki çıxışında Şuşanın Azərbaycan Ordusu tərəfindən 28 il sonra işğaldan azad edildiyini belə müjdələmişdi: "Azərbaycanlı qardaşlarımızın Şuşa zəfərini təbrik edirəm. Şuşanın azad edilməsi işğal altındakı digər ərazilərin azadlığa qovuşmasının yaxın olmasına işarədir. Addım-addım işğal altındakı şəhərləri və Qarabağı azadlığa qovuşduran azərbaycanlı qardaşlarımızın sevinci bizim də sevincimizdir".

Türkiyənin qarşılaşdığı problemlərdən danışan, o cümlədən Ermənistanın xarici güclərin təsiri ilə Qafqazda problemlər yaratmasını və bütün bu məsələlərin qətiyyətlə dəf edildiyini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan Böyük Qələbədən sonra böyük məmnunluqla demişdi: "Azərbaycanlı qardaşlarımızla 30 illik acıları sona çatdıran zəfərin sevincini yaşadıq".

*Namiq ƏHMƏDOV, "Xalq qəzeti"*